

# Nişanlı bir qız

*Müzlim gecədə nişanlı bir qız*
*Bir hüznü ələm içində yalqız.*
*Yatmaz, uyumaz o qəmli düxtər,*
*Zanularını qucub mükəddər,*
*Barmaqda nişan üzüklə iştə*
*Oynar, edər ah ol firiştə.*
*Fəryadla qəmli-qəmli ağlar,*
*Hər naləsi kainatı dağlar.*

Nişanlı qız ağlaya-ağlaya deyir ki, “ey mənim qara bəxtim, nə olardı ki, mən olaydım Firəngistan şəhərlərinin birində, atamın adı olaydı Fridrix, anamın adı olaydı Avqustina, mənim adım olaydı Mariya. Nə olardı ki, dünyanı işıqlandıran günün üzünə hərdənbir baxmış olaydım və atam-anam məni qoca kişiyə vermək istəyəndə bir söz danışmağa ixtiyarım olaydı. Ey mənim qara bəxtim, nə olardı ki, milyonlarca yazılan kitablardan ikicəciyin oxumuş olaydım və biləydim ki, dünyaya nədən ötrü gəlmişik. Ey mənim qara bəxtim, doğrudur, firəng qızı olsa idim, öləndən sonra yerim cəhənnəmin dib bucağı olacaq idi, amma çifayda ki, indi də öləndən sonra cənnətə gedib görəcəyəm ki, elə hayana istəyirəm gedəm, hayanda istəyirəm oturam, hər yan və hər tərəf doludur keçəl-küçəl məşədi və kərbəlayılar ilə, bitli hacılar ilə və çirkli və tərli çadralı arvadlar ilə.

Ey mənim qara bəxtim!”

***Lağlağı***

---

## Təsəlli

Aşqabadda uzunsaqqal bir möhtərəm ağa uşağı ölən analara təsəlli verib deyirmiş ki, bu zəmanənin uşaqlarının qalmağından isə ölməkləri çox məsləhətdir.

Kəramətə qurban, kəramətə!

**“Molla Nəsrəddin”, 1910, № 2.**



Azərbaycan.- 2019.-12 fevral.- S.7.